# Azərbaycan Prezidentinin ermənilərə həqiqət dərsi



**Ulu Yaradan Azərbaycana gözəl, rəngarəng təbiət bəxş etmişdir. Torpağımızın altı da, üstü də sərvətlərlə zəngindir. Bütün bunlar tarix boyu güclü dövlətləri özünə cəlb etmiş, yağılar milli varlığımıza qənim kəsilmiş, sərvətlərimizi yağmalamışlar. Lakin heç bir işğalçı, ən güclü düşmən belə axıradək torpaqlarımızda qala bilməmişdir. Xalqımızın öz yurduna bağlılığı və onun uğrunda dönməz mübarizəsi işğalçıları gec-tez məğlub etmişdir.**

Bugünlərdə bir qrup ziyalı ilə Dağlıq Qarabağın Azərbaycanın nəzarətində olan ərazisinə– Xocavənd rayonundakı "Nərgiztəpə" deyilən qəhrəmanlıq ünvanına səfər zamanı hamılıqla bu tarixi həqiqəti bir daha yada saldıq, işğal edilmiş ərazilərimizi tezliklə erməni vandallarından təmizləyəcəyimizə qətiyyətlə inandıq. Məsələ burasındadır ki, tarixən, xalqımıza pənah gətirib yurdumuzun ən yaxşı guşələrində yerləşmiş ermənilər burada möhkəmləndikdən sonra xəyanət yolu tutmuş, kənardakı düşmənlərimizin əlində Azərbaycana qarşı təzyiq aləti olmuşlar. Bundan şirniklənən bu yurd-yuvasız xalq, nəhayət, sığındıqları ərazilərə sahiblənmək iddiasına düşmüşdür. Bu xain xalq  himayədarlarının köməyi ilə tarixi torpaqlarımızda özlərinə dövlət də qurmuşdur. Son bir əsrdə ermənilər törətdikləri soyqırım və deportasiyalarla dünyanın ən xəyanətkar və qəddar xalqına çevrilmişlər.

Dağlıq Qarabağ münaqişəsi bu siyasətin davamı olaraq 30 ildən artıqdır ki, davam edir. Himayədarlarının köməyi və ölkəmizdəki başıpozuqluqdan istifadə edərək Ermənistan torpaqlarımızın 20 faizini ələ keçirmiş, xarabazara çevirmişdir. 1 milyon soydaşımıza hələ də məcburi köçkün taleyi yaşadan  işğalçı dövlət Azərbaycana hədsiz-hesabsız ziyan vurmuş, xalqımıza misilsiz faciələr yaşatmışdır. Lakin ağlını itirmiş düşmən özü bundan qat-qat artıq itki vermiş, oyuncaq Ermənistan bir dövlət kimi özünün mövcudluğunu sual altına qoymuşdur. Erməni xalqı axır vaxtlarda onları bu vəziyyətə salmış hərbi səhra komandirlərinin qanlı rejimini qismən devirsə də, "Böyük Ermənistan" sərsəmliyindən ayıla bilmir. Onlar anlamırlar ki, bais olduqları münaqişənin girovuna çevrilmişlər.

Ermənilər, nəhayət, başa düşməlidirlər ki, tarix boyu Azərbaycana işğalçı kimi gələn dövlətlərlə müqayisədə Ermənistan heç nədir. Əgər ermənilər bu həqiqəti anlamaq istəyirlərsə qoy baş nazirləri N.Paşinyanın onları yenidən yuxuya verən nağıllarını bir kənara qoyub son vaxtlar Azərbaycan Prezidenti İlham Əliyevin mötəbər tribunalardan səsləndirdiyi xatırlatma və çağırışların məna və məntiqinə diqqət yetirsinlər. Azərbaycan rəhbəri Ermənistanın başbilənlərinə bildirib ki, öz xalqlarını faşizm siyasəti ilə məhvə aparmasınlar. Prezident İlham Əliyev xatırladır ki, Ermənistanın nicat yolu işğalçılıqdan əl çəkib, dinc qonşuluğa başlamaqdadır. Qonşu ölkələr, Avropa dövlətləri Azərbaycanla isti münasibətlər qurub faydalandığı halda, Ermənistan özünü dalana salıb, getdikcə tənəzzül edir.

Azərbaycan Prezidenti bugünlərdə hökumətin iclasında ölkənin birillik sosial-iqtisadi yekunlarını təhlil edərkən baş nazir Paşinyanın heç bir tutarlı arqument olmadan, Ermənistanı ölkəmizlə müqayisə etməklə bağlı cəfəngiyyatını da cavablandırmalı oldu. Dövlət başçısı İlham Əliyev Ermənistanın daxili və xarici siyasətin bütün parametrləri üzrə uduzduğunu faktlarla sübuta yetirərək bildirdi: "Son vaxtlar Ermənistanın baş naziri öz ölkəsinin dırnaqarası uğurları haqqında danışarkən Ermənistanı Azərbaycanla müqayisə edir. Onun gəldiyi qənaətə görə, Ermənistan Azərbaycanı bir çox parametrlər üzrə qabaqlayır. Bəri başdan bildirirəm və bunu heç sübut etməyə ehtiyac yoxdur ki, belə bir fərziyyənin heç bir əsası yoxdur. Azərbaycan Ermənistanı bütün əsas parametrlər üzrə böyük fərqlə qabaqlayır".

Dövlətimizin başçısı qeyd etdi ki, əsas makroiqtisadi göstəricilər üzrə 2019-cu ildə Azərbaycanın ümumi daxili məhsulu dollar ekvivalentində 47,6 milyard dollardır, Ermənistanda isə cəmi 13 milyard dollar. Alıcılıq qabiliyyətinə görə Azərbaycan 187 milyard dollar daxili məhsula sahibdir, Ermənistan 33 milyard, fərq 5,6 dəfədir. Valyuta ehtiyatları Azərbaycanda 51 milyard dollar, Ermənistanda 2 milyard dollardır, fərq 25 dəfədir.

Xarici ticarət dövriyyəsi Azərbaycanda 33,6 milyard, Ermənistanda 7,4 milyard dollardır, fərq 4,5 dəfədir. İxrac - Azərbaycan 19,6 milyard, Ermənistan–2,4 milyard, fərq 8,1 dəfədir. Sərmayə qoyuluşu - keçən il Azərbaycana 13,5 milyard dollar qoyulubdur, Ermənistana 900 milyon, fərq 15 dəfədir. Nəhayət, iqtidarın uzunmüddətli strategiyasına görə Azərbaycan dünyada onuncu, Ermənistan 59-cu yerdədir. İqtidarın siyasi sabitliyi təmin etməsi– Azərbaycan 11-ci, Ermənistan 58-ci yerdədir

O ki qaldı müharibənin taleyində həlledici olan hərbi imkanlara və gücə, yenə Ermənistan qat-qat zəifdir. "Global Firepower 2019" hesabatı üzrə, dünyanın ən güclü orduları reytinqində Azərbaycan 52-ci, Ermənistan isə 96-cı yerdədir. O cümlədən hava gücü üzrə Azərbaycan 63-cü, Ermənistan 86-cı yerdədir. Dəniz gücü üzrə Azərbaycan 67-ci yerdədir, Ermənistanda dəniz yoxdur. Tank gücü üzrə Azərbaycan 32-ci, Ermənistan 78-ci yerdədir.

Prezident İlham Əliyev 2016-cı ildə Ermənistanın dinc Azərbaycan əhalisinə qarşı hərbi təxribat törətməsinin cavabı olaraq ərazilərimizin müəyyən hissəsinin  bir həmlə ilə azad edilməsini də ermənilərə xatırlatdı: "Azərbaycan buna cavab olaraq uğurlu əks-hücum əməliyyatı keçirərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini, minlərlə hektar torpağı işğalçılardan azad etdi və o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu, bizim hərbi qələbəmiz idi. Növbəti hərbi qələbə 2018-ci ildə təmin edilmişdir. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində 10 mindən çox hektar ərazi işğalçılardan, erməni silahlı qüvvələrindən təmizləndi və bir neçə önəmli strateji yüksəklik azad edildi. Bu yüksəkliklər imkan verir ki, biz Ermənistanın strateji kommunikasiyalarına tam nəzarət edə bilək. Bu, bizim ikinci hərbi qələbəmiz idi".

Bütün bunlar – Azərbaycan rəhbərinin ermənilərə verdiyi dərs xalqımızı bir daha inandırır ki, işğalçı Ermənistanın məğlubiyyəti qaçılmazdır. Bunu onlar nə qədər tez anlasalar bitib-tükənməyən itkiləri də bir o qədər az olar.

**Ağalar BAYRAMOV,**
**Əməkdar artist**